**COP29 könüllüsü: Prezidentimizin gənclərə qayğısının canlı şahidi olduq**

Ötən il noyabrın 11-22-də ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mütərəqqi bir tədbirdə Azərbaycan gəncliyinin birgə fəaliyyəti bütün dünyaya əsl nümunə oldu. Belə ki, 2000-ə yaxın gəncin həmrəylik nümayiş etdirərək bu mötəbər tədbirdə fəal iştirakı ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirildi.

Bu sözləri AZƏRTAC-a Bakı Dövlət Universitetinin Kimya fakültəsinin üçüncü kurs tələbəsi, COP29 könüllüsü Raisə Cəmilova eksklüziv açıqlamasında söyləyib.

"Həmişəki kimi, bu tədbirdə də bir daha ölkə gəncliyi olaraq Prezidentimizin qayğısının canlı şahidi olduq. Belə ki, onun qərarına əsasən, hər bir COP29 könüllüsü "Təşəkkürnamə"yə layiq görüldü. Bu, bir daha Azərbaycan gəncliyinə olan inamın, güvənin, dəstəyin və sevginin bariz göstəricisidir. Yanvarın 15-də isə daha da sevindirici bir xəbər yayıldı. Verilən qərarla hər bir COP29 könüllüsü 1500 manat pul mükafatına layiq görüldü. Biz qalib xalqın qalib gəncləriyik. Sevinirik ki, Prezident İlham Əliyev kimi yüksək insani keyfiyyətə, dərin zəkaya, qətiyyətli mövqeyə malik dövlət başçımız var. Biz bununla fəxr edir və gələcək nailiyyətlərimizin işığında da həmişə ölkə rəhbərinin ətrafında sıx birləşməyə, onun siyasətini dəstəkləməyə davam edəcəyik", - deyə Raisə Cəmilova vurğulayıb.

**AZƏRTAC**
**2025, 16 yanvar**